BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

Sikaflex® Precast

Poliuretan əsaslı dərz dolğu germetiki

TƏSVİR

Sikaflex® Precast, yaxşı mexaniki xüsusiyyətlərə malik, tək komponentli, nəm ilə bərkiyən elastik dərz germetikidir. Geniş temperatur diapazonunda elastikliyini saxlayır və yığma beton, prefabrik elementlər arasında birləşmə dərzlərinin sızdırmazlığını təmin edir.

İSTİFADƏ YERLƏRİ

Dərzlərin sızdırmazlığı üçün:
- Yığma beton və prefabrik elementlər arasındakı deformasiya və birləşmə dərzləri
- Daxili və xarici məkanlarda dərz dolğu işləri üçün istifadə olunur

ÜSTÜNLÜKLƏRİ

- ± 25 % hərəkət qabiliyyəti (ASTM C719)
- Betona yaxşı yapışma
- Qabarcıq əmələ gəlmədən bərkimə
- Yaxşı axmazqlıq müqaviməti

DAVAMLILIQ

- LEED v2009 IEQc 4.1 tələblərinə uyğunluq: Aşağı emissiyalı materiallar — Yapışdırıcılar və germetiklər

TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

- EN 15651-1 standartına əsasən CE nişanı və İstismar Göstəriciləri Bəyannaməsi — Binalardakı dərzlərdə qeyri-konstruktiv istifadə üçün germetiklər — Fasad elementləri — F-EXT-INT CC
- EN ISO 11600-F sinfi 20 HM, Sikaflex® Precast, SKZ, Sınaq hesabatı № 113665/14-III
- ASTM C920-11, sinif 25, Sikaflex Precast, MST, Hesabat № 1213920-SIKA

MATERIAL MƏLUMATI

Kimyəvi əsası	i-Cure® texnologiyası əsasında poliuretan tərkib	
Qablaşdırma	600 ml silindirik naylon qablaşdırma: 20 ədəd/qutu	
Rəng	Beton boz, ağ, bej	
Saxlama Müddəti	İstehsal tarixindən etibarən 12 ay.	
Saxlama Şərtləri	Məhsul orijinal, açılmamış və zədələnməmiş qablaşdırmada, quru şəraitdə, +5 °C ilə +25 °C arasında temperaturda saxlanılmalıdır. Həmişə qablaşdırmanın üzərindəki məlumatlara baxın.	
Sıxlığı	~1.60 kg/l	(ISO 1183-1)
Material Bəyannaməsi	EN 15651-1: F EXT-INT CC ISO 1600: F 20 HM ASTM C920-11: Class 25	

TEXNİKİ MƏLUMATLAR

Shore A sərtliyi	~40 (28 günlük)	(ISO 868)
Sekant dartılma modulu	~0.60 N/mm² 60 %-lik uzanma zamanı (+23 °C-də)	(ISO 8339)
Qırılma zamanı gərilmə	~500 %	(ISO 37)
Elastiklik bərpası	~90 %	(ISO 7389)
Yırtılmaya qarşı müqavimət	~7 N/mm	(ISO 34)
Hərəkət qabiliyyəti	± 25 % ± 20 %	(ASTM C 719) (ISO 9047)
Xidmət temperaturu	−40 °C / +70 °C aralığında	

Dərz dizaynı

Dərzin ölçüləri germetikin hərəkət qabiliyyətinə uyğun layihələndirilməlidir. Dərzin eni min. 6 mm və maks. 30 mm olmalıdır. Enin dərinliyə nisbəti 2:1 saxlanılmalıdır. Eni 10 mm-dən az olan dərzlər, adətən, daxili birləşmə dərzləri və ya çatların idarə olunması üçün nəzərdə tutulan dərzlərdir və buna görə hərəkətsiz dərzlər hesab olunur.
Dərz germetiki ASTM C719 standartına əsasən ±25 % hərəkət qabiliyyətinə malik kimi təsnif edildikdə, xarici tətbiqlərdə beton elementlər arasındakı dərzlərin tipik enlərinə nümunə:

Dərz arası məsafə (m)	Min. Dərz Eni (mm)	Min. Dərz Dərinliyi (mm)
2	10	10
4	15	10
6	20	10
8	30	15
10	35	17

Dərz germetiki ISO 9047 standartına əsasən ±20 % hərəkət qabiliyyətinə malik kimi təsnif edildikdə, xarici tətbiqlərdə beton elementlər arasındakı dərzlərin tipik enlərinə nümunə:

Dərz arası məsafə (m)	Min. Dərz Eni (mm)	Min. Dərz Dərinliyi (mm)
2	10	10
4	20	10
6	30	15
8	40	20
10	50	25

Bütün dərzlər icra olunmazdan əvvəl müvafiq standartlara və tətbiq qaydalarına uyğun düzgün layihələndirilməli və ölçüləndirilməlidir. Tələb olunan dərz enlərinin hesablanması üçün əsas amillər:

- Konstruksiyanın növü
- Ölçülər
- Dərz əmələ gətirən materiallarının texniki göstəriciləri
- Dərzin sızdırmazlığı üçün seçilmiş material
- Binanın və dərzlərin məruz qaldığı xüsusi təsirlər

Dərzlərin layihələndirilməsi və hesablanması barədə əlavə məlumat üçün Sika® Texniki Xidmətinə müraciət edin.

TƏTBİQ MƏLUMATI

Sərfiyyat

Dərz Eni [mm]	Dərz Dərinliyi [mm]	600 ml ilə Dərz Uzunluğu
10	10	6
15	10	4
20	10	3
25	12	2
30	15	1.3

Bu göstəricilər nəzəri xarakter daşıyır və səthin məsaməliliyi, profili, səviyyə fərqləri, itkilər və s. səbəbindən tələb oluna biləcək əlavə materialı nəzərə almır.

Dəstək materialı	Qapalı hüceyrəli polietilen köpükdən hazırlanmış dayaq fitilindən istifadə edin	
Sarxma axıcılığı	< 3 mm (20 mm profil, +50 °C-də)	(ISO 7390)
Ətraf mühit temperaturu	Min. +5 °C / Maks. +50 °C	
Səthin temperaturu	Min. +5 °C / Maks. +50 °C . Şeh düşmə nöqtəsi temperaturundan min. +3 °C yüksək	
Kürlənmə sürəti	~2 mm / 24 saat (+23 °C / 50 % N.R) *Sika Korporativ Keyfiyyət Proseduru	(CQP* 049-2)
Qabıqlama vaxtı	~65 dəqiqə (+23 °C / 50 % N.R.)	(CQP 019-1)
İşləmə müddəti	~40 dəqiqə (+23 °C / 50 % N.R.)	(CQP 019-2)

MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

ƏLAVƏ MƏLUMAT

- Germetikləşdirmə və yapışdırma üçün ilkin səth hazırlığı cədvəli
- Sika® Tətbiq Təlimatı: Dərzlərin germetikləşdirilməsi
- Sika® Tətbiq Təlimatı: Dərz təmiri, təmizləmə və yeniləmə
- Sika® Texniki Təlimatı: Fasadların Germetikləşdirilməsi

DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Sikaflex® Precast, əksər ənənəvi fasad boya sistemləri ilə boyana bilər. Lakin uyğunluğu təsdiqləmək üçün əvvəlcədən sınaqlar aparılmalıdır (məsələn, ISO-nun texniki sənədinə əsasən: Germetiklərin boyanma qabiliyyəti və boyalarla uyğunluğu). Ən yaxşı nəticələr germetikin əvvəlcə tam bərkiməsinə imkan verildikdə əldə olunur.
- Qeyd: elastik olmayan boya sistemləri germetikin elastikliyini məhdudlaşdıra və boya örtüyünün çatlamasına səbəb ola bilər. İstifadə olunan boyanın növündən asılı olaraq, plastifikatorun miqrasiyası baş verə bilər və nəticədə boyanın səthi yapışqan ola bilər.
- Rəng dəyişiklikləri istismar zamanı kimyəvi maddələrin, yüksək temperaturun və/və ya ultrabənövşəyi şüalanmanın təsiri nəticəsində baş verə bilər (xüsusilə ağ rəng çalarında). Bu təsir estetik xarakter daşıyır və məhsulun texniki göstəricilərinə və ya davamlılığına mənfi təsir göstərmir.
- Təbii daş üzərində istifadə etməyin.
- Bitumlu səthlərdə, təbii kauçukda, EPDM kauçukda və ya germetiki zədələyə bilən yağlar, plastifikatorlar və ya həlledicilər ifraz edə bilən hər hansı tikinti materialında istifadə etməyin.
- Üzgüçülük hovuzlarının daxilində və ətrafında dərzlərin sızdırmazlığı üçün istifadə etməyin.
- Su təzyiqinə məruz qalan və ya daimi su altında qalan dərzlərdə istifadə etməyin.
- Bərkiməmiş Sikaflex® Precast məhsulunu spirt tərkibli məhsulların təsirinə məruz qoymayın, çünki bu, bərkimə reaksiyasına mane ola bilər.

ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

Reqlament (EC) No 1907/2006 (REACH) - Məcburi təlim

24 avqust 2023-cü il tarixindən etibarən bu məhsulun sənaye və ya peşəkar istifadəsindən əvvəl adekvat təlim tələb olunur. Ətraflı məlumat və təlimə keçid üçün www.sika.com/pu-training saytına daxil olun.

.

TƏTBİQ TƏLİMATLARI

SƏTH HAZIRLIĞI

Səth təmiz, quru, möhkəm olmalı; yağlardan, kirlənmədən, tozdan, sement şərbəti təbəqəsindən və boş və ya ovulan hissəciklərdən təmizlənməlidir. Təmizləmə üçün tel fırça, daşlama, qumlama təmizləmə və ya digər uyğun mexaniki üsullardan istifadə edin.
Sikaflex® Precast astar və/və ya aktivator olmadan yapışır.
Optimal yapışma və dərzin davamlılığını təmin etmək üçün, eləcə də çoxmərtəbəli binalardakı dərzlər, yüksək gərginliyə məruz qalan dərzlər, sərt hava şəraiti və ya suya batırılma / su təsiri kimi yüksək istismar göstəriciləri tələb edən kritik tətbiqlərdə aşağıdakı astarlama və/və ya ilkin səth hazırlığı prosedurlarına əməl edilməlidir:

Məsaməli səthlər

- Beton, məsaməli beton, sement əsaslı suvaq və məhlul səthləri, eləcə də kərpic səthlər fırça ilə tətbiq olunan Sika® Primer-3 N ilə astarlanmalıdır.
- Germetik tətbiqindən əvvəl > 30 dəqiqə (< 8 saat) gözləyin.

Qeyd: Astarlar və aktivatorlar yapışmanı artıran vasitələrdir və dərz səthinin qeyri-kafi hazırlanmasını / təmizlənməsini əvəz etmir. Astarlar dərz dolğusunun uzunmüddətli yapışma göstəricilərini yaxşılaşdırır.
Əlavə məlumat üçün Sika® Texniki Xidmətinə müraciət edin.

QARIŞDIRMA

İstifadəyə hazır, tək komponentli germetik.

TƏTBİQ METODU/ALƏTLƏR

Tətbiq təlimatlarında, tətbiq üzrə vəsaitlərdə və iş təlimatlarında müəyyən edilmiş tətbiq prosedurlarına ciddi əməl edin. Bu prosedurlar hər zaman sahənin faktiki şəraitinə uyğunlaşdırılmalıdır.

Maskalama

Səliqəli və ya dəqiq dərz xətləri tələb olunan yerlərdə maskalama lentindən istifadə edin. Son səth işlənməsindən sonra, səthdə qabıq əmələ gəlməzdən əvvəl maskalanma lenti çıxarın.

Dərzin dayaq şnuru / Fitil

Səth hazırlığından sonra uyğun dayaq şnurunu/ dərz fitilini tələb olunan dərinlikdə yerləşdirin.

Astarlama

Tələb olunduqda dərz səthlərini səth hazırlığı bölməsindəki tövsiyələrə uyğun astarlayın. Dərzin dibində astarın yığılmasının qarşısını almaq üçün həddindən artıq astar tətbiq etməyin.

Sika Azərbaycan MMC
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12

Tətbiq

Sikaflex® Precast istifadəyə hazır şəkildə təchiz edilir. Folqa qablaşdırmanın və ya kartricin ucunu hazırlayın, germetik tapançasına yerləşdirin və ucluğu taxın.
Sikaflex® Precast məhsulunu dərzə sıxaraq tətbiq edin; dərzin yan səthləri ilə tam təmasını təmin edin və hava boşluqlarının yaranmasına yol verməyin.

Son işlənmə

Tətbiqdən sonra mümkün qədər tez bir zamanda germetiki uyğun alətlə dərzin yan səthlərinə möhkəm sıxaraq işləyin ki, lazımi yapışma və hamar səth təmin olunsun.
Dərzin səthini hamarlamaq üçün uyğun hamarlayıcı vasitədən (məsələn, Sika® Tooling Agent N) istifadə edin. Sudan istifadə etmək olar. Həlledici tərkibli hamarlayıcı vasitələrdən istifadə etməyin.

AVADANLIQ TƏMİZLİYİ

Bütün alətləri və tətbiq avadanlıqlarını istifadədən dərhal sonra Sika® Remover-208 ilə təmizləyin. Bərkimiş material yalnız mexaniki üsulla təmizlənə bilər. Əl və dəri təmizliyi üçün Sika® Cleaning Wipes-100 istifadə edin.

YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.